**UOT 008:39**

**Ülkər Şükürlü**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr. 39**
**E-mail:** ulkarshukurlu@hotmail.com

# AZƏRBAYCANDA MƏDƏNİ MÜXTƏLİFLİK VƏ ÖZÜNƏMƏXSUSLUQ

**Xülasə:** Məqalədə Azərbaycan Respublikasında mövcüd olan mədəni müxtəliflik və Azərbaycan Respublikasının bu sahədə apardığı uğurlu siyasəti öz əksini tapmışdır. Azərbaycan Respublikasında yaşayan az saylı milli azlıqlara və onların özünəməxusluqlarına qısaca nəzər salınmışdır. Sivilizasiyalararası dialoqun yüksək şəkildə inkişaf etdiyi ölkəmizdə milli azlıqların mədəni dəyərlərinə tolerantlıq, mədəni dözümlülük prinsipi nöqteyi-nəzərindən yanaşılmışdır. Tarix boyu davam edən bu proses bu gün də yüksək şəkildə həyata keçirilir. Diskriminasiya, ksenofobiya, irqçilik, milli və dini zəmində ayrı-seçkilik kimi ideyaların mövcud olmadığı ölkəmizdə hər zaman etnik və mədəni dözümlülük mühiti hökm sürmüşdür.

**Açar sözlər:** multikulturalizim, mədəni müxtəliflik, milli azlıqlar, tolerantlıq, milli mədəniyyət, özünəməxsusluq.

Mədəni müxtəliflik və plüralizimin meydana gəlməsində multikultural dəyərlər mühüm rol oynayır. Hələ XX əsrin əvvəllərində görkəmli etnoqraf, Vəliyev ( Baharlı) bildirmişdir ki, Azərbaycan etnoqrafik bir muzeydir. Azərbaycanda mövcud olan mədəni müxtəliflik və özünəməxsusluğun formalaşması prosesi uzun tarixi təkamül nəticəsində meydana gəlmişdir. Müasir dövrdə aparılan siyahıya alınmaya görə Azərbaycan Respublikası əhalisinin 9,4%-i azsaylı xalqların nümayəndələri təşkil edir. Ölkəmiz mədəni müxtəliflik nöqteyi-nəzərdən olduqca zəngindir. Azərbaycanda multikulturalizmin meydana gəlməsində əsas məqsəd mədəni müxtəlifliliklərin tanınınması yolu ilə tolerant və məhsuldar bir cəmiyyətin yaradılmasıdır. Ümümiyyətlə, multikulturalizm konsepsiyası müxtəlif mədəni dəyərlərin qorunması və yaşadılması anlamını kəsb edir.

Hazırda ölkəmizdə mövcud olan çoxçalarlı mədəniyyət multikultural ənənələr çərçivəsində formalaşmışdır. Ümumiyyətlə, ölkəmizdə udinlər, ingiloylar, ləzgilər, ruslar, ermənilər, talışlar, avarlar, məhsəti türkləri, tatarlar, ukraynalılar, saxurlar, gürcülər, kürdlər, yəhudilər, udinlər birgəyaşayış konteksti çərçivəsində yaşayır və onlara qarşı göstərilən humanist, tolerant münasibət özünü qabarıq bir şəkildə biruzə veriməkdədir. Bu azsaylı xalqlar qafqazdilli, irandilli, türkdilli qruplara daxildirlər. Onların bir hissəsi Azərbaycanın köklü əhalisi olub, başqa bir hissəsi isə tarixin müxtəlif mərhələlərində baş verən sosial- siyasi proseslərin nəticəsi olaraq ölkə torpaqlarında məskunlamışlar.(3)

**Udinlər-** Dünyanın etnik xəritəsində udi adlı etnos bu gün yalnız Azərbaycan ərazisində mövcuddur. Udi dilinin əsasını Alban əlifbası tutur. Əlifba V əsrdə yaradılmışdır, 52 hərfdən ibarətdir Tarixi proseslər nəticəsində bu əlfbadan hal-hazırda istifadə olunmur. Udi dilinin üç dialekti var : Oğuz , Nic , Oktomberi (Gürcüstanda kənd). Nic dialekti də öz növbəsində 3 hissəyə bölünür: aşağı, aralıq və yuxarı. Belə ehtimal var ki, bu hissələr özləri də Tovuz rayonu, Kirzan kəndi və Arsaxdan (Qarabağ, Seysulan kəndi, Həsənqala) olan müxtəlif udin qruplarına uyğun olaraq ayrı-ayrılıqda dialektdir. Bu tayfalar sonradan əsrlər boyu yaşadıqları ərazilərin ermənilərlə məskunlaşdırılması nəticəsində Nic və Oğuz ərazilərinə köçmüşlər.

Keçmişdə udilər yalnız Qafqaz Albaniyasının ərazisində qeydə alınmışdır. Tarixən Günəşə, Aya sitayiş edən udinlər IV əsrin əvvəllərində xristianlığı qəbul etmiş və bu günə kimi dinini saxlamışlar. Udilərin ulu babaları Qafqaz Albaniyası tayfalarından biri olan utilər olmuşdur. Udilər haqqında ilk məlumat hələ 2500 il bundan əvvəl verilmişdir. Bu etnosun əcdadları olan utilər haqqında e.ə. V əsr yunan müəllifi Herodotun "Tarix" əsərində məlumat var. Marafon döyüşünü (b.e.ə. 490-cı ildə yunan-fars döyüşü) təsvir edən müəllif göstərir ki, fars ordusunda, XIV satrapinin tərkibində utilərin əsgərləri də vuruşurdular. Udi sözünə termin kimi ilk dəfə Böyük Plininin (l əsr) "Həqiqi tarix" əsərində rast gəlinir. Ptolomeyin (ll əsr) "Coğrafiya" əsərində, Xəzər dənizinin ətrafında müxtəlif tayfaların, o cümlədən – udilərin yaşadığı göstərir.

Udilər Qafqaz Albaniyasının yaradıcısı olan 26 tayfadan biri olmaqla, həm də Qafqaz Albaniyasında başlıca rol oynayan tayfalardan biri idi. Qafqaz Albaniyasının Ərəblər tərəfindən zəbt ediləndən sonra Udilərin yaşadığı ərazilər və Udilərin sayı azalmağa başlayır.

**İngiloylar** — əsasən Azərbaycanın Qax və Zaqatala rayonları ərazisində yaşayan gürcülərin subetnik qrupu. I Şah Abbasın dövründə müsəlmanlığı qəbul etmişlər. Etnik, psixoloji, mədəniyyət və s. cəhətlərinə görə azərbaycanlılarla qohumluq əlaqələrinə malik olan ingiloylar yaşadıqları cəmiyyətə sıx inteqrasiya olunmaları ilə seçilirlər.

İngiloylar 26 qədim alban tayfasından biri olan gellərdir, "gel" sözü də "ingiloy" sözünün ikinci hecasında "gil" kimi öz əksini tapıb. Böyük Qafqaz dağlarının dağətəyi bölgəsində yaşayan inqloyların əsas məşğuliyyət sferası tütünçülük, taxılçılıq, üzümçülük, qərzəkli meyvəçilik və heyvandarlıqdır. 19-cu əsrdən başlayaraq belə bir fikir irəli sürülmüşdür ki, guya ingiloylar etnik mənsubiyyətə görə 18-ci əsrdə İslam dinini qəbul edən gürcülər olmuşlar. Guya ki, ingiloy sözü "yeni" və yol (özlərinə yeni yol seçənlər) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Ancaq "yeni yol" başqa heç bir şeylə əsaslandırılmamışdır. Tarixi məlumatlara görə, azərbaycanlılar ingiloyları qellər adlandırırlar. Strabonun məlumatına görə qellər amazonkalıların arasında yaranmışlar. Bu faktı Plutarx da (ikinci əsr) təsdiq etmişdir.

Dövlət Statistika Komitəsinin məlumatında ingiloyların deyil, gürcülərin sayı barədə məlumatlar verilir. Azərbaycanın regionları üzrə statistik göstəricilərdə də gürcülər barədə məlumat verilir. Heç bir son dövrlərin statistik məlumatında ingiloy adı altında say göstəricisinə rast gəlinmir. İngiloylar əsasən Balakən rayonunun İtitala kəndində, Zaqatala rayonunun Əliabad qəsəbəsində və Mosul kəndində, Qax rayonunun Qaxingiloy, Əlibəyli, İngiloy Kötüklü, Böyük Alatəmir, Kiçik Alatəmir, Meşəbaş, Qaxbaş və Qarameşə kəndlərində yaşayırlar.

**Talışlar** — Azərbaycan Republikasının cənub-şərqində, əsasən Lənkəran, Astara, Lerik və qismən Masallı rayonunda, eləcə də İranın şimalında, əsasən Gilan ostanında və az sayda Ərdəbil ostanının Nəmin şəhristanının Ənbəran bəxşində yaşayan xalqdır.

Talışların ulu əcdadları Kadusilər hesab edilir.Bu mülahizəni irəli sürməyə əsas verən yeganə fakt isə Kadusi tayfasının yaşadığı ərazinin bir hissəsində hazırda talışların yaşamasıdı. Strabon, Herodot, Plutarx, Dionis (eramızın II əsr tarixçisi) kimi tarixçilərin qeydlərində Kadusilərin adlarına rast gəlmək mümkündür. Bu və digər müəlliflərin sitatlardan nəticəyə gəlmək olurki, Kadusiya şərq və cənub-şərqdən Xəzər dənizinə və Amardların diyarına, cənub və qərbdən Midiya Atropatenasına və şimaldan Arran və Albaniya torpaqlarına qovuşurdu 2009-cu il ümumölkə əhali siyahıya alınmasının rəsmi yekunlarına əsasən talışlar Azərbaycanda yaşayan de-fakto üçüncü, de-yuri isə dördüncü azsaylı etnik qrupdur. Azərbaycanda hazırda tədris proqramında talış dili öyrənilən 248 məktəb fəaliyyət göstərir.

**Tatlar** — İran dilli etnoslardan biri.Azərbaycan və İran ərazisində yaşayırlar. Tarixi məlumata görə bu qədim xalq təqribən 2000 il bundan qabaq Sasani imperiyası hakimiyyəti zamanı şimaldan gələn türklərin qarşısını almaq məqsədi ilə Cənubi Qafqaz ərazisinə köçürülmüşdür. Qədim ari tayfalarından olan tatlar ərəb işğalından sonra islam dinini qəbul etmişlər.Azərbaycan dilində danışan tatlar əsasən Bakıda, Şamaxı, Quba, Gəncə, Şəmkir və Dərbənd rayonlarında tarixən sıx olaraq məskunlaşıblar. Hal-hazırda Azərbaycan Respublikasından kənarda - Rusiya Federativ Respublikasında, Qazaxıstanda, Qırğızıstanda da müsəlman tatlar yaşayır .Tatların sayı rəsmi statistikada göstərildiyindən qat-qat coxdur.Çünki SSRİ dövründə tatların demək olar ki hamısını pasportda Azərbaycanlı kimi göstərmişlər.İndi də tatların demək olar ki hamısı sənədlərdə Azərbaycanlı kimi göstərilməkdədir.Qədim tarixə sahib tatlar Quba-Qafqaz xalçaçılığının inkişafında böyük rol oynamışlar.

**Yəhudilər** - qədim İsrail çarlığında yaşamış əhalidən yaranan xalq.Faktiki olaraq dünyanın bütün ölkələrində yaşayırlar.1948-ci ildən yəhudi dövləti — İsrail də mövcuddur.Sayı təqribən 14 mln.nəfər (2006-cı il rəqəmi), onlardan 40%-i İsraildə, 35%-i isə ABŞ-da yaşayır. Ənənəvi dini iudaizmdir.Yəhudilərin əksəriyyəti yaşadıqları ölkənin dilində danışmırlar.İsraildə isə rəsmi dövlət dili XX əsrdə danışıq dili kimi dirçəldilmiş ivritdir.Ayrı-ayrı ölkələrdə spesifik yəhudi dilləri var.

Azərbaycanda üç yəhudi icması - dağ yəhudiləri, əşkinazi yəhudiləri və gürcü yəhudiləri icmaları mövcuddur. Bütövlükdə ölkədə yəhudilərin sayı 16.000-dir. Bunlardan 11.000-i dağ yəhudiləridir ki, təxminən 6.000-i Bakıda, 4.000-i Qubada, min nəfəri isə başqa şəhərlərdə yaşayır. Əşkinazi yəhudilər 4,3 min nəfərdir. Onların əksəriyyəti Bakıda və Sumqayıtda yaşayır. Gürcü yəhudiləri təxminən 700 nəfərdir. Dağ yəhudiləri hazırda ölkədəki bütün yəhudi diasporu arasında çoxluq təşkil edir. Dini əqidələrinə görə, dağ yəhudiləri rəbbanilərdir. Onlar Əhdi-ətiqlə yanaşı, Təlmudu və ravvin rəvayətlərini də dinin əsas mənbələri sırasında götürürdülər. Uzun müddət ali ruhani təhsil ala bilmədikləri üçün Təlmud qaydalarını bir qədər təhrif edilmiş şəkildə izah etmiş, Qafqaz xalqlarının bütpərəstliklə bağlı bəzi təsəvvürlərini mənimsəmişlər. Meşədə yaşayan, hamilə qadınların ürəyini və ciyərini çıxarıb yeyən qadın Dedey-ol, yeni doğulmuş uşaqları himayə edən İlan-Əjdəha (Əjdəhaye-mar) ilə bağlı təsəvvürlər, habelə Pasxadan iki həftə qabaq tonqal qalayıb üstündən atılmaq ayini yəhudiliklə deyil, yerli inanclarla bağlıdır. Dağ yəhudiləri əqidə məsələlərində əşkinazi yəhudilərlə müqayisədə

daha ortodoksaldırlar. Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Krasnaya Slobada qəsəbəsi bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir.

**Kürdlər** — Yaxın Şərqdə Türkiyə, İraq, İran, Suriya ərazisində kompakt halda yaşayan xalqdır. Əsasən kürd, türk, ərəb və fars dillərində danışırlar. Kürd tayfaları qədimdən cənub-qərbi İranda yaşamışlar. "Kürd" sözü qədim dillərdə "pəhləvan", "mərd" deməkdir. Kürdlərin sayına dair müxtəlif təxminlər möcuddur. Ancaq təxmini də olsa bu haqda rəqəmlər irəli sürmək olduqça çətindir, belə ki, XXI əsrin əvvəlində kürdlər dünyaya səpələnmiş şəkildə onlarla ölkədə yaşasalar da onların əksəriyyəti bu ölkələrdə yeni yaranmış diasporalara sahibdirlər və əksərən yaşadıqları ölkələrin vətəndaşları deyildirlər. Kürdlər hazırda Naxçıvan MR-nın Sədərək rayonunda rayon mərkəzində (Heydərabad qəsəbəsi), Culfa rayonunun Teyvaz kəndində və Şərur rayonunun Dərəkənd kəndində yaşayırlar, həmçinin erməni işğalına qədər Laçın (Qarakeçdi, Bozlu, Kamallı, Şeylanlı, Katos, Ağcakənd və Minkənd kəndləri), Kəlbəcər (Soyuqbulaq, Yuxarı Şurtan, Orta Şurtan, Aşağı Şurtan, Zəylik, Xallanlı, Ağcakənd və Oruçlu kəndlərində elliklə), Qubadlı (Zilanlı kəndi) rayonlarında da kürdlər yaşayırdılar. İşğaldan sonra bu rayonların əhalisi Azərbaycanın digər şəhər və rayonlarına məcburi köçkün düşmüşlər.

Ölkəmizdə yaşayan etnik-milli azlıqların hüquqları qorunması barəsində sovet hakimiyyəti əsarətindən xilas olduqdan sonra mühüm qərarlar qəbul edildi. 1992–ci ildə Azərbaycan Respublikasının prezidenti "Azərbaycan Respublikasında mövcud olan milli azlıqların, azsaylı xalqların və etnik qrupların hüquq və azadlıqlarının qorunması, onların dil və mədəniyyətlərinin qorunması və inkişafı" barədə fərman imzalamışdır. Bu sənəd keçmiş sovet respublikaları içərisində qəbul olunmuş ilk sənəddir.

Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyanın 18 dekabr 1992-ci il tarixli, 45/135-ci qətnaməsi ilə qəbul edilmiş “Milli və yaxud etnik, dini və dil azliqlarina mənsub şəxslərin hüquqlari haqqinda bəyannamə”yə və 1995-ci il fevralın 1-də Avropa Şurasının qəbul etdiyi «Milli azlıqların hüquqlarının qorunması haqqında» Çərçivə Konvensiyasına da qoşulmuşdur. ( 6)
mədəni müxtəlifliyin dövlət tərəfindən tənzimlənməsi prosesi bəzən iki siyasət vasitəsilə reallaşdırılır, bu siyasət modelləri assimlasiya və izolyasiyadan ibarətdir. Assimlasiya yəni, uyğunlaşdırma prosesi zamanı milli azlıqların mədəniyyəti digər mədəniyyətlərə uyğunlaşdırılır və sanki digər mədəniyyətlərin içərisində əriyir, nəticədə isə milli azlıqların mədəniyyəti tədricən unudulur və bu azlıqların yaradığı mədəni dəyərlər ləğv olunur.

Qeyd edək ki, bu prosesə əsasən böyük imperiyaların tərkibində uzun müddət yaşayan milli azlıqların mədəniyyəti məruz qalır. Bu proses də özülüyündə iki şəkildə - təbii və məcburi şəkildə həyata keçir. İzolyasiya prosesi isə milli azlıqların təcridolunması ilə xarakterizə olunur. Ümumiyyətlə, bu iki siyasi model milli azlıqların mədəniyyətinin qorunub-saxlanılması və gələcək nəsillərə ötürülməsi prosesinə böyük manə törədir. Bu baxımdan da multikulturalizm yəni, çoxmədəniyyətlilik prosesi daha aktual və məqsəduyğundur.

## Ədəbiyyat:

**Azərbaycan dilində**

1. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009.
2. Atilay A. Mədəniyyətlərin savaşı: Yeni dünya sisteminə doğru. /Qloballaşmaya doğru (məqalələr toplusu). Bakı – 2006
3. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 264 s.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2003, 48 s.
5. Azərbaycanda "2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası". "Mədəni-maarif", 2006, № 11, s.5-6.
6. Azərbaycan Respublikası (1991-2001). Bakı: Yeni nəşrlər evi, 2001, 360 s.
7. Hüseynov İ., Əfəndiyev T., Abbasov N. Dünya mədəniyyət siyasəti. Bakı, 2012

**İnternet materialları**

8. https://az.wikipedia.org/wiki/Multikulturalizm
9. https://azertag.az/xeber/Kamal_Abdulla_Multikulturalizm_Azerbaycanda_dovlet_siyasetidir-1206946
10. http://unec.edu.az/multikulturalizm-siyasetinin-prinsipleri-ve-azerbaycan

**Улькер Шюкюрли**

**Культурное разнообразие и своеобразие в Азербайджане**

**Резюме**

В статье исследуется культурное разнообразиеАзербайджанской Республики, как результат успешной культурной политики. Автор дает краткую информацию о малых народах, проживающих на территории Азербайджанской Республики. Азербайджан, открытый к межцивилизационным диалогам сохраняет толерантность к культурным ценностям национальных меньшинств. Этот процесс, который происходил на протяжении всей истории, осуществляется и сегодня.

**Ключевые слова**: мультикультурализм, культурное разнообразие, национальные меньшинства, толерантность, национальная культура, идентичность

**Ulkar Shukurli**

**Cultural diversity and peculiarity in Azerbaijan**

**Summary**

The article explores the cultural diversity of the Republic of Azerbaijan as a result of a successful cultural policy. The author gives brief information about small peoples living in the territory of the Republic of Azerbaijan. Open to intercivilizational dialogues, Azerbaijan remains tolerant of the cultural values of national minorities. This process, which has taken place throughout history, is ongoing today.

**Keywords:** multiculturalism, cultural diversity, national minorities, tolerance, national culture, identity

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.04.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08.04.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 03.05.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: dosent Tamilla Əhmədova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur.**